

Dilqəm ƏHMƏD

# Cümhuriyyətin bayrağını Bakıya gətirdi

## Əsir düşdüm, it damında yaşadım"

***II Dünya müharibəsi başa çatdıqdan sonra almanlara əsir düşən azərbaycanlılar talenin ümidinə qaldılar. Bəzilərini qalib dövlətlər vətəndaşları olduqları SSRİ-yə təhvil verdilər, bəziləri intihar etdi, bəziləri isə müxtəlif ölkələrə səpələndilər. Onların bir çoxu İsveçrədə, Türkiyədə, İtaliyada, Almaniyada, Amerikada yaşadılar, Vətən həsrətinə dözməyib geri qayıdanlar da oldu.***

***Bu yazıda onlardan biri haqqında bəhs edəcəyik: Gülmirzə Bağır.***

***Arolsen arxivindəki 1949-cu ilə aid sənədlərə görə Gülmirzə Bağır 1907-ci il yanvar ayının 5-də Bakıda doğulub. Krımda – Feodosiyada əsir düşüb. Evlidir, İslam dininə mənsubdur. Müharibədən sonra D.P. düşərgəsində yaşayıb. Atasının adı Mustafa, anasının adı Səriyyə olub. Dülgərdir. Rus, türk, alman dillərini bilir.***



***Gülmirzə Bağır başına gələnlərin ardını bu şəkildə danışıb: "Bu minvalla bizi Vyanaya gətirib çıxardılar. Bir müddət burada hərbi düşərgədə qaldıq. Sonra bizi dəstələrə bölüb yenə vaqonlara doldurdular. Mənim getdiyim qatar Hamburqa gəlib çıxdı. Aramızdan nisbətən güclüləri seçib kölə kimi yerli sahibkarlara satmağa başladılar. Mən bir fermerin bağında işləməyə məcbur oldum. Bağ belləyirdim, o qədər işləyirdim ki, gecələr qollarımın ağrısından, belimin sızıltısından yata bilmirdim. Başım çox bəlalar çəkib, it damında da yatmışam, mal tövləsində də. Yastığım quru daş, döşəyim nəm torpaq olub"***

Münxendə yaşayan Gülmirzə Bağır 35 il sonra türk həyat yoldaşı Möhtərəm xanımla birgə Azərbaycana qayıdıb, doğulduğu Maştağa qəsəbəsində yaşayıb.

***Burada qeyd edək ki, müharibədən sonra geri qayıdan və ya təhvil verilən azərbaycanlılar ya həbs edilib, ya da güllələnib. Amma Stalinin vəfatından sonrakı yumşalma dövründə Azərbaycana qayıdanlar rahat şəkildə həyatlarını yaşayıblar. Azərbaycan legionunda xidmət edənlər arasında da 20-30 il sonra ölkəyə qayıdanlar olub. Bu baxımdan Gülmirzə Bağırın dönüşü qəsəbədə böyük maraq yaradıb. Eləcə də Azərbaycan mətbuatı ona diqqət göstərib.***

Azərbaycan Dostluq Cəmiyyətinin Xaricdə Yaşayan Həmvətənlərlə Mədəni Əlaqə Şöbəsinin mətbu orqanı olan "Vətənin səsi" qəzetinin 1978-ci il tarixli 211-ci (iyun) sayında Gülmirzə Bağırdan müsahibə alınıb. "35 il qürbətdə olduqdan sonra" başlıqlı bir səhifəlik yazıda həm Gülmirzə bəyin fikirlərinə yer verilib, həm də jurnalist İsmayıl Kərimov öz düşüncələrini qələmə alıb. Yazıda ailənin gündəlik həyatı ilə bağlı üç fotoşəkil də verilib. Yazı bu cümlələrlə başlayıb: "Maştağa qəsəbəsinin səfalı guşəsində pəncərələri günəşə açılan kürsülü bir ev uzaqdan diqqəti cəlb edir. Evin ətrafı ağ daşdan səliqə ilə hasara alınıb. İri darvazadan içəri adlasanız, hasar boyunca əkilmiş gül-çiçəkləri, hələlik qol-budaq atmamış nar, gavalı ağaclarını görəcəksiniz. Evin arxasında, güntutan yerdə kiçik ləklərdə xiyar, pomidor, göyərti əkilib. Geniş həyətin ortasındakı krandan gecə-gündüz su əskik olmur. Gülmirzə Bağır və Möhtərəm xanım bir ildən çoxdur ki, bu evdə yaşayırlar, həyətdə yaxşı səliqə-sahman yaradıblar. Pəncərələrə zövqlə rəng çəkib, həyətdə iri çarhovuz düzəldiblər".



### "Yastığım quru daş, döşəyim nəm torpaq olub"

Yazıdan öyrənirik ki, Gülmirzə Bağır Bakıya qayıtdıqdan sonra yaxınlıqdakı dördmərtəbəli məktəb binasının həyətində bağban olaraq çalışıb. 1941-ci ilin yayında Maştağada yaşayan Bağırovlar ailəsindən beş qardaş cəbhəyə yollanıb. Qardaşlardan dördü müharibədə həlak olublar. Ardınca Gülmirzə Bağırın da qara xəbəri gəlib. Davamını məqalədən oxuyaq: "1942-ci ilin mayında Krım cəbhəsində döyüşlər


A.E.F. D.P. REGISTRATION RECORD
Original [X] Duplicate [ ]
11378
265962
(1) Family Name: Bagir — Other Given Names: Gulmirza — (3) Sex: M. [X] — (4) Marital Status: Single [X] — (5) Claimed Nationality: U.S.S.R.
(6) Birthdate: 5.1.07 — Birthplace: Baku — Country: Russland — (7) Religion (Optional): Mahom. — (8) Number of Accompanying Family Members: 1
(9) Number of Dependents:
(10) Full Name of Father — (11) Full Maiden Name of Mother
(12) Desired Destination — (13) Last Permanent Residence or Residence January 1, 1938: Feodorja Krym U.S.S.R.
(14) Usual Trade, Occupation or Profession — (15) Performed in What Kind of Establishment — (16) Other Trades or Occupations
(17) Languages Spoken in Order of Fluency — (18) Do You Claim to be a Prisoner of War — (19) Amount and Kind of Currency in your Possession
(20) Signature of Registrant: — (21) Signature of Registrar: Elig. — Date: 1.12.49 — Assembly Center No.
(22) Destination or Reception Center: D.P. Camp Warner Kaserne Bl. B. München
(23) Code for Issues: 1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28
(24) Remarks
Turkey 19.3.57

daha da şiddətləndi... Kerçdə çətin döyüşlərin birində Gülmirzə ağır yaralandı, əsir düşdü. Faşistlər Sovet əsirlərini əvvəlcə Novorossiyskə gətirdilər, sonra vaqonlara doldurub Ukraynanın Vinnitsa şəhərinə apardılar. Buradan isə ayağı yer tutanları döyə-döyə, söyə-söyə piyada naməlum səmtə doğru qovmağa başladılar. Sonradan məlum oldu


ШӘКИЛДӘ: Күлмирзә Бағыр вә Мөһтәрәм ханым тәзә тикдирдикләри евин ејванында отуруб сөһбәт едирләр.

ki, onları Rumıniya torpağından keçirib Avstriyadakı hərbi düşərgələrə aparırlar. Yeriyə bilməyənləri arxadan tüfəngin qundağı, süngü ilə itələyir, əldən düşmüşləri isə güllələyib öldürürdülər".

Gülmirzə Bağır başına gələnlərin ardını bu şəkildə danışıb: "Bu minvalla bizi Vyanaya gətirib çıxardılar. Bir müddət burada hərbi düşərgədə qaldıq. Sonra bizi dəstələrə bölüb yenə vaqonlara doldurdular. Mənim getdiyim qatar Hamburqa gəlib çıxdı. Aramızdan nisbətən güclüləri seçib kölə kimi yerli sahibkarlara satmağa başladılar. Mən bir fermerin bağında işləməyə məcbur oldum. Bağ belləyirdim, o qədər işləyirdim ki, gecələr qollarımın ağrısından, belimin sızıltısından yata bilmirdim. Başım çox bəlalar çəkib, it damında da yatmışam, mal tövləsində də. Yastığım quru daş, döşəyim nəm torpaq olub".

***Gülmirzə Bağır Sovet qoşunlarının Almaniya üzərində qələbəsini Hamburqda eşidib, lakin geri qayıtmaqdan çəkinib: "Gözümüzün odunu elə almışdılar, 'satqınsınız, Vətənə getsəniz sizi güllələyəcəklər" deyə elə qorxutmuşdular ki, nə edəcəyimizi bilmirdik. Şəxsən mən qorxurdum ki, Vətənə gəlsəm, mənə xalqımın düşməni kimi baxarlar, lənətləyərlər. Odur ki, çırpınırdım, nə edəcəyimi, taleyimin necə olacağını bilmirdim".***

Gülmirzə Bağır haqlı idi. Çünki Stalinin "Əsir düşmüş qırmızı ordu əsgərlərini bütün yerüstü və hava vasitələri ilə məhv etmək" haqqında 16 avqust 1941-ci il tarixli 270 □-li əmri vardı. Bu əmr icra edilirdi...

Ona görə də Gülmirzə Bağır geri qayıtmayıb, Hamburq, Hannover, Mittenvald, Egenfeld, Münxen kimi şəhərlərdə yaşadıqdan sonra Türkiyəyə gedib. Türkiyədə Möhtərəm xanımla tanış olub, evlənib. Bir müddət Türkiyədə yaşadıqdan sonra yenidən Münxenə qayıdıb.

### Azərbaycana dönüş

***Gülmirzə Bağırın həyat yoldaşı Möhtərəm xanım jurnalistə Azərbaycana qayıtmaları ilə bağlı bunları bildirib: "Günlərin birində çox götür-qoy etdik, belə qərara gəldik ki, Gülmirzə Vətənə, qohum-əqrəbalarına məktub yazsın....***

(ardı gələn sayımızda)